# 0BİRİNCİ QARABAĞ MÜHARİBƏSİ VƏ QAÇQINLAR
( Povest ) real hadisələrlə.
1. Hissə

Çöldən gəldim.
Yorulmuşdum. Qapını açıb içəri keçdim. Hiss etdim ki, sanki kimsə var evdə.
Salam verdim, səs gəlmədi...
Deməli divarların da, qulağı varmış.
– Bu gün onu yenə gördüm.
Ayaqlandım. Lakin elə bil kimsə mənə getmə dayan dedi.
Ayaq saxladım. Düşündüm ki, nə olardı bu gün alınaydı. Biraz söhbət edərdik. Fikrimi də söyləyərdim.
Təsəlli tapardım. Fikrimi toplayıb, otaqdan–otağa keçdim. Üst başımı soyundum. Elə bil kimsə məni izləyirdi. – Aaa bağışla unutdum. Fikrim özümdə deyildi.
Təzimlə salamlaşdım. –Salam ey otaq yiyəsi...
Rəhmətlik nənəm deyərdi balalarım. Yeni tikilmiş evlərə dədə baba pişikləri salardılar ki, qara qüvvə varsa təmizlənsin. Bütün günü boş qalan otağa girəndə, salam verməmiş girməyin. – Niyə ay nənə... təzə bina olan insanlara belə tövsiyyə olunub. Qapı döyüldü...
Bir anlıq qızı xatırladım...kaş qapını döyən o, qız olaydı.
Bu fikir birdən–birə hardan ağlıma gəldi...çölə çıxdım...
Qapını səhv salmışdılar... Mətbəxə keçdim. Salam ay ev yiyəsi.
Deyib rahat nəfəs aldım...Qız yadımdan çıxmırdı.
Boyu şimal, xırda buruqlu, uzun xurmayı şaçları vardı.
Əyninə geydiyi mavi rəngli paltar, onun gözəl bədən quruluşuna malik olduğundan xəbər verirdi.
Zövqünə də söz ola bilməzdi. Aydan arı, günəş kimi qığılcımlı yerişi, sanki mələk yeriyirdi. Xanım dediyim zaman, bəli deyəndə,dedim:
– Yerin də yiyəsi var...həyətə otağa girəndə salam verməyi

unutma...ardı davamlı...

## 2. Hissə

Birinci Qarabağ müharibəsində qaçqın və köçkünlərin dilindən bəzi epizodlar əsasında, onları 92 saylı peşə mıktəbinə yerləşdirən zaman, partkom kimi fəaliyyət göstərirdim. Sıxı ünsiyyət olduğu üçün hər bir məsələləri ilə maraqlanırdım. Salam verib otağa daxil oldum.
Axşam olduğu üçün, yeyib içib tez yatdım. Düzdü yuxuya gedə bilməsəm də, arxası üstə əllərimi başımın arxasında düyünləyib, gözlərimi tavandan çəkmədən, onu düşünürdüm. Bir nöqtəyə zilləndiyimdən, nə vaxt yuxuya getiyimdən xəbərim belə olmayıb. O, nazənin gözləri göz önümdən getmirdi. Hər baxışı, duruşu nəni dəli edirdi... Yuxudada narahatlıq sanki tavada qovrulan toyuq kimi qovururdu.
Birdən kimsə mənə toxundu. Çevriləndə gözümə görünən ilk xurmayı saçlı o gözəl oldu. Özümü bir anlıq itirdim.
Lakin artıq gec idi. O yanımda gözləmədiyim bir halda :
– Ay Allah sən mənə verən bir xoşbəxtliyə bax dedim.
Cəld əllərindən tutub özümə tərəf çəkdim. Və bağrıma basdım. Qız da tərəddüd etmədən, mənim hərəkətlərimə məhəl qoymadan, sanki elə bunu gözləyirdi. Öpmək istəyirdim ki, yuxudan ayıldım. Tez gözlərimi yumdum ki, yuxuda da olsa, ardını izləyim. Artıq gec idi yuxum çəkilmişdi. Yastığı bərk–bərk qucaqladığımdan, qollarım ağrıyırdı...

Ey gecənin dan ulduzu,
Tək qoydun mən yalqızı.

Yatağımdan əzgin qalxdım. Sanki, döyülmüşdüm. Səhər ala–babat yeyib, durub geyinməyə keçdim. Səhər saat 9–a, az qalırdı. Ayaqqabılarmı təmizləyib maşını işə saldım. Yol boyu yuxumu fikirləşirdim. Hələ onun təsirindən çıxmamış, heç çıxmaq fikrim də yox idi. Fikirləşirdim ki, görən bu yuxunun bir mənası olacaq...

Kaş yuxu yozumları kitabına baxaydım. İş yerimə çatmışdım. İstər–istəməz real olmayan bu yuxunun təsirindən ayıla bilmirdim. Lakin ayılmalı idim.
Salam verib kabinetə keçdim. Bu vaxt zəng gəldi. Dəstəyi alan kimi: – Tez təcili xəstəxanaya gəlin deyə qadın səsi məni xəyallardan ayıltdı. – Ananızı gətiriblər. Narahat olmayın həkimlər nə lazımsa edirlər. İndi reanimasiyadadır. Başımdan elə bil qaynar su tökdülər.
Özümü necə çatdırdımsa artıq xəstəxanada anamın yanında idim. Hər şeyi unudub yalnız anamı düşünürdüm... Atam o gedən qayıtmadı. Bir ümidim anama idi. Anamla tək yaşayırdıq. Atam uşaq vaxtımdan bizi qoyub birinci Qarabağ müharibəsinə savaşa gedən təyyarədə həlak olub dedilər. Başqa məlumatda isə onun cəbhədə qaldığı bildirilirdi. O vaxtdan ondan xəbərimiz yoxdur. – Mən artıq palataya girəndə anam gözlərini açdı. Ehtiyatla yaxınlaşıb bağrıma basdım. Ayrıla bilmədim. Gözlərimiz yaşardı. Hiss etdirmədən qalxıb gözlərindən öpdüm. Həyatda yeganə ümidim olan anamı itirməkdən qorxurdum. Həkimlə danışdım. – Yüngülcə ürək tutması olub. Keçib gedər dedi. Amma əsəbdən qoruyun. Cavandı yazıqdı. – Həkim anam atamın xiffətini çəkir. İtkin düşüb müharibədə. İki gündən sonra anamı xəstəxanadan çıxardılar. Günlər ildırım sürətiylə keçirdi. Başım anamın müalicəsinə qarışdığı üçün, qızı görə bilmirdim. Anam təkidlə evlənməyimi istəyirdi.
– Bala xəstəyəm... Yaşa baxmır xəstəlik. Heç kəsimiz yoxdur. Fikirləş bir halal süd əmən tap elçi gedək.
Yadıma xurmayı saçlı qız düşdü. Gördüyüm yuxu peşmançılıqla bitməsə də, məni yaman silkələdi.
Kitabda oxumuşdum. Yuxuda gülərüzlü şişman qadın görərsənsə, o yuxu yaxşılığa yozulurdu. Amma artıq qaşqabaqlı qadın isə görəndə, peşimançılığa yozulurdu.
Yaxşı ki, yuxuda sevdiyim gülər üzlü qızı görmüşdüm.
Amma görünür hər şey düşündüyün kimi yox, gördüyün kimi olur...

# 3. Hissə

Anam yavaş–yavaş özünə gəlməyə başlayırdı. Tez–tez evlənmə söhbətini araya salırdı. Belə qərara gəldim ki, axşam işdən çıxanda araya söhbət salıb aydınlaşdırmaq lazımdır. İşdən çıxanda o gedən yolun ağzında dayanmalı oldum. Çox gözlədim. Hamı işdən çıxdı. Amma xurmayı saçlı qız gözə dəymədi. Evə qayıtmalı oldum. Heç iş yerini də bilmirdim. Bir neçə gün belə keçdi. Ondan xəbər olmadı. Artıq əlimi üzmüşdüm. Maşın da mənə əl vermirdi. Maşını qoyub piyada getməli oldum. İşdən tez çıxdım. Anam narahat olmasın deyə evə tələsirdim. Yol uzaq olduğu üçün, tez–tez gedirdim. O qədər ürəyimlə danışırdım ki, evə çatmağa az qalırdı ki, birdən geri çevriləndə xurmayı saçlı qızın mənimlə yanaşı getdiyini gördüm. – Salam... Başını qaldırıb gözümə qəribə bir tərzdə baxa–baxa salamımı aldı.

– Biz tanışıq deyə soruşdu. Gözlənilməz sual məni az qala çaşdırmışdı. Bir anlıq nə deyəcəyimi bilmədim.

– Hə...hə... yox...yox...

– Hansına inanaq hə...ya yoxa...

– Belə də sizi bir neçə dəfə görmüşəm...

– hətta?

Daha dinə bilmədim.

– hə nə oldu?!

Xurmayı saçlı qızın bu dərəcədə ünsiyyətcil olmasına inanmağım gəlmirdi.

– Filan yerdə /məxfi/ müdürəm. Həmişə də maşınla getmişəm. Bu gün sözümə baxmadı... Ona görə piyadayam. – Gəl tanış olaq ... adım Xuramandı.

Bəs sizin? ...

Onun belə ürəklə danışmağı, Məni də ürəkləndirdi.

– Adım Rəhmandır...

Bismillahi Rəhmani Rəhim.

– Nə? Heç nə... qonaqpərvərsiniz yəqin.

– Buyurun qonaq gəlin.

– Məmuniyyətlə...
Ürəkləndim. Özümə yer tapa bilmirdim.
Qısa vaxt ərzində tanışlıq, özü də qız tərəfdən...
– Bir anam var... Xocalıdanıq... O müthiş gecə bizi aeroportun rəisi Əlif Hacıyev xilas etdi... Atamı, da o itirən, itirdik... İndi də yerini bilən yoxdur. Əlif Hacıyev çox insanlara kömək etdi... Axırda yaralı əsgəri səngərə gətirən zaman onu da vurdular... Bir anlıq ikimiz də susduq. Evə yaxınlaşırdıq dedim.. ayrılaq.. amma nədənsə o da mənimlə bir istiqamətdə gəlirdi.
– Mən çatdım... sizi ötürüm..
Yox–yox, mən də çatdım...
Ananız necədi? Təəccüblə ona baxdım...
– Necəki..
Ananızı xəstəxanaya mən aparmışam. Mən həkiməm duruxdum bir anlıq...
– Təşəkkür edirəm...
– Geəciniz xeyrə Rəhman bəy.
O gün mən növbədəydim...

## 4. Hissə

Mən otağa girib salam verdim. Anam uzanmışdı.
Yaxınlaşıb o üzündən bu üzündən öpdüm. Bu bizdə həmişə qayda olub. Anam məni görüb.
– Gəldin ay bala..
deyə soruşdu.
–hə ay ana qalxma..
– Necəsən yemək qızdırım...
– Yox yemişəm...
– Gedəndə qonşuya tapşırmışdım ki, səndə göz qulaq olsun. – Hə gəlmişdi, çay qoydu. Birgə içdik. Deyir ay Sənəm. Oğlunu niyə evləndirmirsən?! Sən xəstə adamsan, hayanın olar da?! Anam üzümə baxdı... nə olub... Niyə süzürsən? Bir söz de də... göstər gedim alım gətirim... sənə yoldaş mənə də gəlin olsun ay bala...

VERMƏ SƏN YELƏ

/ nəsihət/

Aldanma hər yetən gözələ oğul,
Axtar el–obandan seçimin elə.
Qəlbini qəlbiylə isit ay oğul
Çalış ürəyini vermə sən yelə.

Gözəllər ondursa doqquzu do' ndur,
Donlar işləndikcə, sevgiyə sondur.
Cavanlıqdan çalış, xoşbəxtlik dilə,
Çalış ürəyini vermə sən yelə.

Aldanma hər yoldan ötən birinə,
Mehrini sal dəyərini bilənə.
Geyim bəzək–düzək aldanma gülə,
Çalış ürəyini vermə sən yelə.

Gülümsədik söz açdım..
– Ana sən o gün, xəstələnən zaman deyirəm. Kim vardı orda. Kim apardı səni xəstəxanaya?!
Axı mən gedəndə sən yatmışdın...
Öpüb üzündən sakitcə çıxdım getdim... axşam da səni görə bilmədim yatmışdın...
Neyləmisən harda olmusan ki, belə gərginləşmisən. Hətta xəstəxanaya da düşdün...
– Qonşuda idim ay bala...
Hansı...
– Arxa tərəfdəki qonşuda...
Müəllif:
Povesti yazdıqca öz–özümə həyacanlanır hətta ağlayırdım da. Hər dəfə xatırladıqca, təzyiq dərmanı atırdım. Heç kimdən arxa–dayaq

istəmədən yaşayan ana–oğul özlərini Allaha pənah gətirməkdə tapırdılar.
Görünür qonşuda bütün dərdlərini açdıqca, ağırlaşmış, xətsəxanalıq olmuşdu. Bir neçə gün keçdi. Biz demək olar ki, hər gün xurmayı saçlı Xuraman həkimlə görüşürdük. Özü də bir–birimizi artıq tanımışdıq.
Xasiyyətimizə də artıq bələd olmuşduq. Özümüzü uzun illərin dostları kimi aparırdıq. O, da anamın səhhətiylə maraqlanırdı. Bu gün də həmişə olduğu kimi anamın səhhətini soruşdu. Bəlkə axşam sizə gəldim. Duruxdum. Qız mənə baxdı. Və başının işarəsiylə nə oldu. Mən həkiməm. Xəstələrimin taleyi məni həmişə maraqlandırır. Birdə burda nə var ki, mənim sahəmdir. Yaşadığım ərazidə sahə mənə həvalə olunub. Sahə həkimiyəm. Xəstələrimin sağlamlığı keşiyində durmaq mənim borcumdur. Nə deyirəm ki, buyurub gələ bilərsiniz qəlbimdə sevincdən atılıb–düşmək istəyirdim.
Hərə öz işinə ayrıldıq.
Sən mənə bir yar olsan.
Nə dərdi–sərim var ki, deyə ürəyimdə mızıldana, axşama kimi, sevincdən bilmirdim nə edim.
Axşam tez gəldim.
– Nə olub ay bala...deyə anam soruşdu?
Niyə tez Gəldin? Mənə görə iş–gücündən qalma. Qonşu tez–tez gəlib dəyir mənə.
Həə... lap yaxşı.
– Sən bir çay qoy , gedim konfet də alım gətirim. Bu gün sənə baxmağa sahə həkimi gələcək.
– Yaxşı... o gün də mənə baxan həkim o olub. Nə olsun layiqincə qarşılayaq.
Sevincək qonşu dükana qaçıb gəldim.
Bu vaxt qapı döyüldü...

## 5. Hissə

Qaça–qaça qapını açmağa getdim.
Kimsən?
– Mənəm Rəhman bəy həkim.
Qapını araladım... həkim həyətə daxil oldu.
Salam...
– Əleykəsalam...
Xoş gəldiniz... necəsiz?
– İşdən evə getməmiş, istədim əvvəl Sənəm xalaya dəyim. Əhvalını soruşum.
– Sağ olasan ay bala, səyəndə yaxşıyam. Rəhman işdən gələnəcən qonşu mənə həyan olur. Çayımı–Çörəyimi verir, Köməy edir. Darıxanda söhbət də edirik.
– Sən necəsən qızım? anan necədi?
– Sağ olun yaxşıdı, salamı var.
– Sağ ol ay bala... bizdən də salam deyərsən...
– Oldu.
Oğlunuz evli deyil, Yoxsa nəvələriniz yanınızdan əl çəkməzdi. Anamın təzyiqini ölçə–ölçə hərdən mənə də baxırdı.
– Evlənir ki, ay bala...
O, gün özüm də demişəm... Bir halal süd əmən qız tap evləndirim səni. Nə qədər salamatam baş–göz yiyəsi edim. Sənin Toyunu görüm.
– Anaa...başımı yellədim.
– Nə olub ki, anan düz deyir də sən işə gedirsən, o isə evdə tək qalır.
Nəvələri ilə başını qatar da.
–Vallah qızım göstərsin bu saat elçi gedərəm... Qızım ağladı nə oldu?
Xuramandı Sənəm xala.
– Həə... orda elə dedilər...  bu sənsənmiş səhv etmirəmsə.
– Bəli...
– Ailəlisən qızım?
– Xeyir başım təhsilə qarışıb deyə, düşünməmişəm heç.
– Bəs valideynlərindən kimin var?

– Bir anamdı...mən  balacaykən atam itkin düşüb.
Qaça–qaçda Xocalıdan çıxanda aeroportun rəisi Əlif Hacıyevlə İnsanaltı blokadadan çıxmağa çalışarkən, aralı düşdük. Əlif dayı anamı və mənlə yanaşı başqalarını da çıxarmağa köməy edəndə atam itkin düşdü. Daha görüşə bilmədik. Öldü–qaldısından xəbərimiz yoxdur bu günə kimi. O aralarda Əlif dayını da vurdular. Pərəm–pərəm düşdük.
Doluxsandı...
– Xəbər göndərmişdi ki, biz qayıdacağıq mütləq.
Bizdə kövrəldik. Çünki ikimizin taleyi fərqli olsa da, eyni yazılmışdı.
– Bəs siz Sənəm xala, yoldaşınız hanı?
– Can ay bala yoldaşım da eyniylə itkin düşüb atan kimi. Sən danışanda gözümün qabağında özümüz canlandıq.
O, gecə çoxu meşədən çıxanda ermənilər tərəfindən haqlanmışdılar. Rəh
manın atası dedi ki, siz gedin, mən sizi tapacam. Məndən nigaran qalmayın. Gecənin ala toranlığında gözdən itdi. Atışma səsləri hər yeri bürüdü. Millət çaşqınlıq içində hara gedəcəyini bilməyən küçələrə tökülüşdülər. Mərmi səslərindən uşaqlar körpələr mələşir sakitləşmək bilmirdilər. Soyuq–sazaqlı havada ancaq canlarının xilasına can atırdılar. Bütün bu acıları ancaq kasıb təbəqə çəkirdi. Başçıların çox ancaq ailəsinin hayında öz maşınlarına minib qaçırdılar. Orda olan bütün banklar da, ermənilər və ermənipərəstlərin əli ilə satılmış mənimsənilmişdi... ona görə xalqa kömək edən tapılmadı. Qaçqın–köçgün düşdülər. Qırılan da qırıldı. Bəziləri Murov dağda dondu.  Ermənilər tərəfindən haqlananlarda da, qadınlar namuslarını qorumaq üçün əl–ələ verib özlərini qayadan atdılar.
/ Şəhid olanların dilindən  /
Xocalıda çox adam qırıldı. Sonradan yerdə  meyidləri  qalanları. Milli qəhrəmanımız  Çingiz Mustafayevin vasitəçiliyi ilə çıxarıldılar. Çəkilişlər ondan qalan yadigarlardır.
Səngərlərdə o qədər igid oğlanlar vardı ki, onların meyidlərini çıxarmaq mümkün olmadı.

Vətənimə, xalqıma edilən zülm, tutulan divanlar heç vaxt unudulmayacaq.

## 6. Hissə

Artıq qaranlıq düşürdü. Rəhmanın atasını bir daha görmədik. O vaxtdan tək yaşayırıq. Hamımız kövrəldik.
– Rəhman bəy sənin çayın nə oldu, tez–tez..
Qalxmaq istəyəndə Xuraman qolumdan tutdu.
– Dayan... özüm gətirəcəm...
– Bilməzsən...
– Yox artıq tanışam mətbəxinizlə. O gün iynə qaynatmışam. Gedək birgə hazırlayaq.
Aldığım konfetləri də çayı da gətirib süfrəyə düzüb, oturub birgə çay içdik. Söhbətimiz maraqlı olduğu üçün, vaxtın nə vaxt keçdiyindən xəbərimiz olmayıb.
– Yaxşı... vaxtdır... daha gedim anam nigaran qalar.
– Rəhman bala dur... Həkimi yola sal evlərinə. Yoxsa qaranlıqdır qorxar.
– Narahat olmayın günüm belə keçir. Özümüzünkülərin içindəyik. Ermənilər ha deyil? Onsuz da qorxum yoxdur. Özüm gedərəm. Yox yox, narahat olmayın. Uzaqda olmuram ki,  Yola hazırlaşmalı olanda, anam...
– Yola sal bala, itdən, pişikdən çıxar qarşısına. Küçə qaranlıqdır.
Qapıdan birgə çıxdıq. Evlərinə kimi yola salıb qayıtdım. Çünki artıq qaranlıq idi. Bizi görsələr yaxşı düşməzdi. Deyə qayıtdım. Sizin də gecəniz xeyrə deyib sağollaşdıq. Təəssüratlardan ayrıla bilmirdim. Deyəsən onun Səmimiyyətinə vurulmuşdum.
Bilmirəm Xuraman da mənim vəziyyətimdə idimi?
Gecə fikirli nə vaxt yuxuya getdiyimi bilmədim. Amma yuxuda daha onu görmək istəmirdim. Səhər yuxudan kefi kök ayıldım. Sanki hər şey qaydasına düşmüşdü.
İllərlə yığılıb qalan yük elə bil üzərimdən götürülmüşdü.
Bir az gec durmuşdum. Yemədən getmək istəyirdim ki, anam

qışqırdı.
Yeməyib getmə. Başın ağrıyar, axşam da yemədin.
– İşdə yeyərəm ana narahat olma. Üzündən öpüb evdən çıxdım.
Maşın heç yadıma düşmürdü.
Qaça–qaça gedirdim. işə yaxınlaşanda yavaşıdım ki, işçilər görməsin. Salamlaşıb kabinetə keçdim...
Bir həftə Xuramanı görmədim.
İkinci həftə özü anama dəyməyə gəldi.
– Növbə ilə işləyirəm... dedi.
Beləcə doğmalaşdıq.
Bir gün işdən gələndə söhbəti evlənməkdən saldı.
– Yeniliyin var?
– Nə yenilik?
– Evlənmək söhbətini deyirəm də .. qız tapdın?!
– İtirmişdim ki,  bəyəm tapım?!
Gələn kimi başımıza min oyun açsın?!
Subaylıq sultanlıqdır. Kimdir evlənən?!
– Həə?!
– İkinci də kimin qızının qarşısını kəsib deyim ki, səni bəyənmişəm.
Ay qız sənin nə vədəndir,
Ağarıb qara tellərin...
Deyib özündən ixtiyarsız olaraq. Xuramanın xurmayı saçını sığalladım.
Xuraman da sanki bunu gözləyirdi.
– Rəhman məni alarsan?! Əyər anan bəyənsə məni alarsan?!
Gözlənilməz suala, Gözlənilməz cavab da verilməli idi. Özümü çaşqın görməsin deyə...
– Yox...
– Niyə.
– Nə bilim... səni tanımıram axı...gələn kimi mənə toy tutasan?!
Ha... ha... ha....
Bir–birimizlə baxışdıq.
– Soruşaram əzizim... Bəyənsə niyə də almayım... güclən düşmüsən əlimə ... gülüşdük.

Əllərini əlimə alıb özümə tərəf çəkdim. Alnından öpüb bağrıma basdım. İkimiz də çox xoşbəxt idik. Yuxum indi çin çıxdı.
– Axşam çay süfrəsi düzəlt, anamla sizə gələcəyik.
Müəllif : yenə dərman atmalı oldum.

## 7. Hisssə

Tapşırıqlar verib.  Günortadan sonra işə çıxmadım. Xuraman gilə getmək üçün bazarlıq edib evə gəldim.
Qapını anam açdı. Əlimdə böyük dəstə gül görəndə təcüübləndi.  – Xeyirdi bala...bu gül dəstəsi nə deməkdir? Yoxsa qoca vaxtımda mənə gətirmisən?
– Yox ay ana...öpdüm...
– Elçilik həvəsinə düşmüsən...nə tez unutdun hə?
Onda yığış elçi gedirik. Zarafat eləmə ay bala, Ürəyim zəifdi, sevincə dözməz,  otağa keçdik.
Anam hazırlaşana qədər, mən də nə lazımsa hazırlayıb, iş paltarlarımı dəyişməyə keçdim. Ana bala qapıdan çıxdıq. Evə yaxınlaşdıqca, ürəyim daha tez–tez döyünməyə başladı.
– A bala sən nə edirsən? Kimin qapısına gedirik.
Tanınmayan birinin qapısına məni calama!
– Narahat olma ay ana, həm sən istəyən, həm də mən istəyən qapıya gedirik.
– Nə tez oldu a bala, göydən düşdü lap.
Evə yaxınlaşıb qapını döydüm...
– Kimsən ay bala deyə, içəridən qadın səsi gəldi
– QONAQ istəmirsiz?
Niyə istəmirik, qonağa da, onun qədəmlərinə də qurban.
Qapı açıldı, bir qadın çıxdı.
– Bura Xuraman həkimin evidir?!
– Bəli ay bala, özü evdə yoxdur. Ağır xəstəsi var, çağırdılar. Keçin içəri...Yəqin ki, xəstəsiz... keçin–keçin...
Otağa girəndə xoş bir qoxu bizi vurdu, Keçib əyləşdik.
– Gözləyin çay hazırlayım, İndi harda var gələr, az keçməz özü də

gələr.
Anam daha sual vermədi. Artıq işin nə yerdə olduğunu anladı. Gülə–gülə barmaq silkələdi...
Bayırdan səs gəldi, və suallara son qoydu.
– Ana qonaqlarımız var deyəsən?
– Hə...hə gəl  QIZIM...
– Əllərimi yuyum gəlirəm.
Otağa girəndə ixtiyarsız qalxdım. Çox sevincək idi.
– Bu həmin mən deyən, qonşularımızdı.
– Aaa, mən də deyirəm xəstəndi...
– Mənim xəstəmdi,  ANA.
– Dünən bütün günü sizdən danışıb.
– Gedim sizə çay gətirim mən də durdum.
– Sən niyə... özüm gətirərəm.
Tərəddüd etmədiyimi görüb razılaşdı.
Biz otağa keçəndə, söhbət qızışmışdı. Çayları şirniyyatı sühryə düzdük.
Bu nədi... mənə almısan.
Bağlamanı almaq istəyəndə anası qoymadı...
– Mənə gətirib ana! deyə ərköyünlüklə gətirdiyi bağlamanı açdı... gülləri güldana qoyub süfrəyə gətirdi... Söhbəti açmağını anamdan xaiş etdim. Anam da qoca qarılar kimi, başladı nə başladı.
Razılığı alıb Xuramanı və anasını təbrik etdik.
Belə qərara aldıq ki,  işi uzatmayaq.
Kimsəsiz birlər idik. Hər şeyi özümüz həll etməli, qısa bir müddətdə toyu ələ almalıydıq.
Öpüşüb görüşüb ayrıldıq. Gələn cümə axşamı üçün üzük keçirib, o biri həftə də yekunlaşdırmaq qərarına gəldik. Səhərdən başlayıb nə lazımsa etməliyidim ki, gecikdirməyək.

## 8. Hissə

Müəllif:
– Dərsdə idim...peşə yönümündən diskussiya edirdik.

Bu vaxt qapı döyüldü...
– Buyurun...
– Müəllim... Sizi 2 nəfər qaçqınlardan axtarırlar. Görüşə gələnlər var. Qaçqınkomdandı. Sizi görmək istəyirlər.
– Bu saat...
Rayona gələn qaçqınların bir birqadası Xaçmaza göndərilmişdi. İşlədiyim 92 saylı Xaçmaz şəhəri peşə listeyinə / o vaxt peşə məktəbi idi / yerləşdirmişdik... Çətinlikləri olanda Qaçqınkomla birgə nəzarətimiz olurdu.  Məktəbin rəhbərliyi ilə birgə / sabiq Mərdanov N. / çatışmazlıqları olurdusa yerində həll edirdik. Tələblərdən üzr istəyib sinifdən çıxdım. Məni görüb yaxınlaşdılar. İcra nümayəndəliyindən gəliblər sizi görmək istəyirlər...
Bu saat deyə. Kabinetə keçdim.
Zəng vuruldu. Sinifdən çıxıb yataqxanaya keçəndə, onların oturub Qaçqın–köçkünlərlə söhbət etdiyini gördüm. Narazılıq edənlər də vardı. Bu ev deyil ki, hər şəraiti olsun? Bacardığımız qədər nəyə gücümüz çatır təşkil edərik.
– Yoldaş partkom nə lazımsa təşkil edin. İmkan daxilində narahatlıq olmasın. Yaman günün ömrü az olur. Bizim də öhdəmizə düşəndən köməy edəcəyik.
Onlar getdilər.
Mən isə axşamlar gedib gündə bir ailə ilə söhbət edir, təsəlli verə, mənəvi dəstək olurdum.
Geyimlərinə qədər çatışmayanları verirdik.
– Ay müəllim inanırsan, səninlə danışanda nə qədər yüngüllük tapırıq?
Atalar demiş... yara sağalar, amma söz yarası sağalmaz.
– Unuda bilmirəm bu kafirlərin əməllərini?!
– Danış dinləyirəm...
– Danışmaqla bitir ki? Gecə ermənilərin hücumu zamanı, kim harda necə bacarır canını qurtarırdı. Bəziləri evlərdə gizlənirdilər. O, cümlədən bizi də qonşu dostluq etdiyimiz erməni ailəsi qurtardı. Üç gün evlərində qaldıq. Ara sakitləşmək bilmirdi. Avadanlıqlarımızı da orda qoyub gecəylə qaçdıq. Bir gecə də qalsaydıq. Bizi salamat qoyan deyildilər. Qacacıq deyən günü

səhər yeməyində, mənə nə desə yaxşıdır?!     – Nə.
– Ara... / ay müsurman anastvas / yəni Allahsız  / söyüşlə. Uzun illər dostluq etmişik. Get ha...getdə sənə bir sürpriz eləmək istəyirəm.    Ha...ha...ha... saxlamışam bəsdir.    – Çox sağ ol!
Ər və arvad ikisi də  hönkürdü.
Elə ağlayırdılar ki, əllərini göyə qaldırıb. Allaha yalvara, şükür edək bu günümüzə deyirdi. Və hönkür–hönkür ağlaya hamını ağlatdı.
– Sakit ol qardaş,   keçib artıq.
Allah cəzalarını verəcək...
– Yox eee...deyirdi ki, get ha getdə bu nəvənin də başın kəsib apardın.     Ha...ha...ha kişini sakitləşdirə bilmirdik.   – Tonlarla çörək kəsmişik. Bunun mənə dediyinə bax? Düzələn deyil bala bunlarla bizimki...  Bir anlıq hamımız susduq. Ayağa qalxdım kefim pozulmuşdu.
– Allaha əmanət deyə, sinfə qayıtdım.
Dərslər qurtarmışdı,  hamı evinə getmişdi.
Evim yaxın olduğu üçün hər gecə yoxlamalar edirdim ki, narahatlıq yaradan olmasın. Tələbə yataqxanası olduğu üçün.

## 9. Hissə

Axşam Rəhman evə gələndə elə bil döyülmüşdü otağa girəndə...
– Nə olub sənə bala, niyə bikefsən?
Qanı qara görünürsən... de, yox ay ana.
Hadisələr...
Atam yadıma düşdü.
Bütün günü ayrılmamışam fikirlərdən. İş də görə bilməmişəm.
Atam olsaydı, hər şey yaxşı olardı. Ən azından yanımda olmasını istərdim. İllər keçdikcə, onun yoxluğu pis təsir edirdi. Bu məsələ niyə həll olunmur? Havadarları olan Rusiya da imkan vermir.
Araları qızışdıra söhbəti uzadırlar. Həll olunmasını istəmirlər....eh...eh...
Fikir eləmə bala, Allahın işidir bəlkə toya gəlib çıxarlar.
– Ay ana ... nə yaxşı olardı?!

Qucaqlaşıb ağlaşdılar...
Həftəni yola vermək lazım idi. Üzük alınmalıdı.
– Qızla danış ikilikdə gedib özü bəyənən üzüyü alsın. Eşidirsən.
Oldu ana. Zəngləşərik sabah gedərik üzük almağa. Mağazaya girmək istəmirdi ki, xoşbəxtlik onunla ölçülmür. Hər bir insanın bəxt üzüyü olmalıdır. Xuraman... güclə mağazaya daxil olduq. Barmaqca əlinə də, özünə də, yaraşırdı. Özü də öz istəyiylə alınan üzük. Mənim də ürəyimdən idi.  O , gün nəhayət ki, gəlib çıxdı. Qonşularla birgə xonçaları hazırlayıb. Anamı da alıb getdik. Bizi gözəl qarşıladılar. Hətta xonça aparan qadınlara da hədiyyə verdilər. Buranın adəti beləymiş. Çox sevindim ki, mənim xoş günümdə onları da sevindirdilər. Əlimdə gül dəstəsi Xuramana yaxınlaşdım. Bir anlıq bir–birimizlə  baxışdıq. Keçən günlər gözümüz önündən lent kimi keçdi. Bütün bunların səbəbkarı, tezlənməsinə səbəb, Xuraman özü oldu. Ona çox minnətdar idim...bu vaxt...
– Ay bala,  kimi gözləyirsən? Hamı səni gözləyir. Xuramanın əlini tutanda, Əli od tutub yandığını hiss etdim. Üzüyü barmağa keçirəndə əlləri tir–tir əsirdi, birdən gurultulu alqış səsləri ətrafı bürüdü, sanki yığıncaqda idim.
– Xoşbəxt olsunlar qoşa qarısınlar.
O da, mən də təbəssümlə baxışdıq.
Süfrələr nəfis hazırlanmışdı...
Hamı süfrəyə bir oturdu...
Yeyib–içib dağılışdılar. Özümüz də qalxdıq. Toyu düşünməli, həll etməli idik.
Belə qərara gəldik ki,  toya bir ay ara verək.
Xuramanla razılaşdıq ki,  analarımıza xoş bir sürpriz edək. Çünki, atalarımız üçün Müdafiə nazirliyinə sorğu göndərmişdik. Nə bilmək olur,  o qədər məxfi işlər var ki,.. Valideynlərimizin toyda iştirakı qədər gözəl bir şey varmı?
Onlardan xəbər gələnəcən toyu təxirə salacağımıza söz verdik.

## 10. Hissə

Xuramanla nişanlanandan sonra, hər gün görüşürdük. Biz onlarda, onlar bizdə. Gün aşırı da Müdafiə nazirliyində olurduq. Tanınmaları üçün, atalarımızın şəkillərini təqdim etmişdik. Yeni xəbər olan kimi, bizi həmən dəvət edirdilər. İş yerinə telefonla zəng etdim. Dedilər hərbi komissarlığa təcili getməliyəm, Xuramanı da götürüb getdim. General bizi görüb. Atağa qalxdı. Görüşdük...

Dedi :

– Bir nəfəri tapmışıq. Meşələrdə partizanlıq edir. Yaxınlaşıb şəklinə diqqətlə baxdıq... Siz verən şəklə bənzəri var. İllər ötüb, dəyişilə bilər.

– Bundur baxın.

Xeyli baxdıq, Xuraman atasına oxşadırdı. Lakin üzündə tük çox olduğundan üz cizgiləri seçilmirdi.

– Gəl belə edək, deyə general müraciət etdi. Ardınca adam göndərmişəm. İşdi gətirsələr deyərəm, kobinetə gətirərlər. Burda görüşərsiz. Hələlik gedin... çağıranda gələrsiz.

Sağollaşıb ayrıldıq.

– Rəhman deyə general səsləndi...qayıtdım.

– Bəli general. Toyunuz nə vaxtdı? Ayın axırı. Oldu gedin.

Kabinetdən çıxdıq. Xuramanı iş yerinə ötürüb. Özüm də işə qayıtdım. Bu günkü hadisə ikimizi də təsirləndirmişdi.

– Xuraman Valdeyinləri tapmayınca evdə dedi yoxdu! Eşidirsən? Söz ver ki,  analarımız bilməyəcək.

Axşam yenə görüşdük... Bizdə çay içdik.  Göz–qaşla, başa saldım ki, ağzından qaçırmasın. Başı ilə narahat olma dedi. Söhbətləşib ayrıldıq.

Amma valdeyinlərimiz elə bil duyuq düşmüşdülər. Elə hey soruşurdular ki, nə isə gizlədirsiniz.

– Sizə nə olub? Nişanlanan gündən bir təhərsiniz.

Balalarımız gözə gəldi. Ay Sənəm bircə sağ–salamat toyu başa verə bilsəydik.?!

– Narahat olmayın, artıq balaca deyilik, problemlərimizi özümüz də həll edə bilərik...

– Nə isə gedək yola salım sizi... Səhər işə getməyə halımız olsun.
Yola salmağa anam da çıxdı arxamızca.
– Allaha əmanət olasız bacım.
Öpüşüb görüşdük. Yola salıb evə qayıtdım. Tez yatdıq.

## 11. Hissə

Artıq durmaq vaxtı idi. Səhər açılmışdı. Xoruzlar banlayırdı, Toyuq–cücə,  qapını kəsdirmişdi. Anam artıq durmuşdu.
– Dur ay bala!...İşə gecikərsən. Qalxdım. Əl üzümü yuyub geyinməyə başladım. Anam artıq çay çörəyi süfrəyə düzmüşdü.
Birgə səhər yeməyini yeyib işə tələsdim.Mən kabinetə girəndə hamı artıq öz iş yerlərində idilər.
Pəncərənin qarşısında dayanıb xeyli vaxt gözlərimi tuşlayıb,vaxtın keçəcəyindən də xəbərim olmadı.
Sanki Xuramanın da, mənimdə atalarımız gülümsəyərək gələcəklərini görürdüm.Kaş ki,gələydilər.Bu biz həyatda ən gözəl hədiyyəmiz ola bilərdi.
Qapı açıldı.Katibə otağa girdi. Əlində bir zərf vardı. Mirzə yaxınlaşdı (məxfidi) – sizədi...Tələsik zərfi açdım
–Hörmətlə Rəhman ( soyadı ) müəllim təcili olaraq komissarlığa gəlməyiniz xaiş olunur.Sizə xüsusi məlumat var.Ürəyim əsməyə başladı. Nə vaxtdı ürəyimdə açılmırdı. Elə bil hissim mənə nəsə bir pis xəbərin veriləcəyindən qəlbim rahat deyildi.
Sakilik sanki təlaşımla əvəz olundu.
Yerimə qaçıb kağızlar imzaladım. Katibəyə tapşırıq verib,kabinetdən çıxdım. Ayaqlarım getmirdi. Sanki pis xəbər eşidəcəm.
İçəri girmədən komissarlığa yaxınlaşanda dayandım. Ora bir qurur hissi ilə baxdım. Sanki mənə mərd ol deyirdi. Hər şeyə hazır olmalısan,axı sən qəhraman atanın oğlusan. Nədə olsa! Axı biz kişiyik. Voenkomun kabinetinə yaxınlaşanda bir anlıq köks ötürdüm.Yaxınlaşıb qapını döydüm. İçəridən səs gəldi.
–Buyurun...Qapını açdım.

Olar?
Komissar ayağa qalxıb mənə tərəf gələ–gələ–Olar buyur oğlum.Qucaqlayıb dirsəyimdən tutub dedi.
–Mətin ol!...uzun gərgin axtarışlardan sonra yerini öyrənə bildik.
Üzünə baxdım.
–Deməyin ki, özünü tapmadınız general.
Hissin səni aldatmayıb. Sizdən ayrılandan sonra düşmən tərəfə qoşulub keçib.
Biz mexfi məlumatlandırmışdıq.Düşmən arxasında sücaətlər göstərib onlar isə bunu gec başa düşüb.
Xəbər tutanda isə işgəncələrlə öldürüblər.
Bizimlə əməkdaşlıq edirdi... Onun bütün əməliyyatları bizim göstərişimizlə olub.
Bütün qəhrəmanlıqları gizli olubsa da bizi məlumatlandırıb.
–Mətin ol. Fəxr etməlisən ki, sənin belə vətənpərvər atan olub...Ölümündən sonra Azərbaycanın milli qəhrəmanl adına layiq görülüb...
Nəvaxt olub hadisə?
–İki gündü..
Vətən sevgisindən bütün bu illər ərzində bir an da, bildirməyi məsləhət görməyib. Düşmənin arxasında vuruşub, Bizim adam olub, Medalın təqdimatı zamanı sizə xəbər veriləcək. Mənim mərd balam Allaha əmanət olun. Onun yerində kim olsaydı, səndə olsaydın bu yolu tutardın. Təskinlik tap, Anana dayaq ol.

## 12. Hissə

Komissarlıqdan çıxıb evə gedə bilmədim. Zəng edib xəbər tutdum ki salamatlıqdır. Düz evə gəldim. Anam məni görüb narahat vəziyyətdə soruşdu.
Nə olub, ay bala? Ürəyim sökülür səni belə görəndə. Nişan üzüyü taxılandan bu yana, sənə nolub? Niyə kefin açılmır?
Ana ürəyi hissiyyatlıdır bala.. Aç ürəyini mənə. Atan yox olandan

gözümü sənə tikmişəm. Xuraman da kefsizdi. Bəlkə aranız dəyib. Allah eləməmiş ümüdlərimi qırma bala,  Axı xəstəyəm. Sənin halına da dözə bilmirəm.
– Heç nə olmayıb ay ana! Qucaqlaşdıq birdən hönkürdük, Sakitləşəndən sonra, dedim..
– Dur gedək Xuraman gilə toy söhbətini həll edək. Nə lazımdısa eləmişəm. Restoran da danışmışam.Gedək onlar da hazırlıq görsünlər.
Biz onlara gələndə, Xuraman xəstə yanından gəlirdi.
– Salam,  salam Sənəm xala...
– Salam ..bala, xoş gördük...necəsiz ?
Keçin–keçin içəri əynimi dəyişib gəlirəm.
– İşdən düz xəstə yanına getmişəm... Anan evdədi ?
Bizim səsimizi eşidib çıxdı qarşılamağa ,
– Salam Gülər xala necəsiz ?
Sağ ol ay bala, siz yaxşı olun. Neçə gündü Xuramandan bir söz qopara bilmirəm. Bəlkə sən deyəsən ? Aranız dəyməsin ha ?
– Yox bir şey yoxdu bəlkə işdə yorulur? Bir xəstəni evdə yola vermək olmur. Qaldı bu qədər xəstə ola?
Həə  burda çay içə–içə,  söhbət elədik.
Xuraman səhər gəlinlik üçün gedərik. Qalanı öz boynuma. Hər şey hazırdır. İsdədiyini seçərsən.Gedib pulunu verərəm gecdir artıq. Səhər al ki, biri gün toydur.
– Oldu.
Çox oturmadıq durduq, Yorğun idim çox gələn kimi yatdıq. Yuxuda da ötəri atamı gördüm xeyir dua verdi. Sənə çox arxayınam dedi..
–Ananı sənə tapşırıram, Onu qoru, O sənə hələ çox lazım olacaq. Ona de ki, məni qoy bağışlasın. Ona söz verdiklərimə əməl edə bilmədim. Ondan muğayat ol bala!
Müəllif ;
Səhər mən işə gedəndə masanın üstündə dəvətnamə gördüm. Zərfi açıb oxuyanda çox sevindim. Şagirdlərimizdən bir qız, qaçqın, əlil bir oğlanla ailə qururdu. Bizi də toya dəvət edirdi. İcra və məktəb rəhbərliyinin razılığı ilə onlara tələbə yataqxanasında iki

otaqlı mənzil verildi. Əlillərə də Respublika rəhbərliyi ona "Oka" avtomobili təqdim etmişdi.
Xoşbəxt olsunlar.
– Dərsdən çıxanda yataqxanada məskunlaşanlarla da görüşüb ayrıldım.

## 13. Hissə

Bu gün artıq Rəhman və Xuramanın toy günü başlayırdı.
Hamı gəlmişdi, iş yoldaşları qonşular yığılmışdı. Gəlin maşınını bəzəyirdilər. Saat 4 də sarayda olmalıyıq deyə tələsirdik. Ana , ana gəlin daha nə qalıbsa gətirin qoyum maşına gecdir, orda da vaxt gedəcək. Xuraman gilə çatanda saat 2–yə az qalırdı.  Əlimdə gül dəstəsi maşından çıxdım, Hamı tökülüşdülər çalğı çalınır oynayırdılar içəri keçib gülü Xuramana verəndə, kimsə qışqıra–qışqıra gəldilər, gəldilər deyirdi. Geri dönüb baxanda, komissarın maşınından bir neçə nəfər də düşdü. Bir azdan mənim əvəzimə Xuramannın qoluna girən komissar,  Rəhman,  Xuraman qızım, sizi ürəkdən təbrik edirəm. Bu gün bu toy məclisini, Rayon icra hakimiyyəti ilə birgə, biz idarə edəcəyik. Xoşbəxt olun!!!
Əlində gətirdiyi qiymətli qutunu da , Xuramana uzatdı. Tələsin gedirik, Hamı maşınlara mindi, bizi də gəlin maşını ilə yola salıb arxamızca signal vura gətirdilər. Şadlıq sarayına saray nəfis bəzədilmişdi,  oturmamış zaks bizə yaxınlaşdı, Təntənə ilə kəbin kəsildi.
Komissar.
– Bu ziynət əşyalarını Müdafiə nazirliyindən göndəriblər.
Qəhrəmanın oğlu Rəhman ( şərti ad soy ad ) , onun kəbinli həyat yoldaşı Xuraman ( şərti ad soy ad ) , hədiyyə olunub. Hamı təccüblə bir–birinə baxışdı,  anamdan çox qorxurdum. Hərbi komissar bunu da nəzərə almışdı. Çöldə " Ambulans " dayanmışdı.

Həkimlərlə birgə,
– Cammat Rəhmanın atası, ( ad çəkilmədi ) qaçqınlıq dövründə ailəsi ilə gəlmədi. O qəsbkarlara qarşı mübarizədə olan dəstələrə qoşuldu. Düşmən arxasında uzun müddət mübarizədə qəhrəmancasına həlak oldu.
Onu toydan iki gün əvvəl vəhşicəsinə edəm elədilər, çox çəsarətlər göstərib, Evinə dönməyib. Bu müddət ərzində o həmişə ailəsini düşünüb, maraqlanmışdır. Tək öz ailəsi üçün yox bütün xalqımızı düşünüb bu yola düşmüşdü.
Çünki, bilirdi ki, arxa cəbhədə Azərbaycan xalqı durur, o həmişə bizim nəzarətimiz altında hərəkət edib.
Dövlətimiz, göstərdiyi şücaətləri nəzərə alaraq, Azərbaycan Respublikası prezidenti Əliyev İlham Heydər oğlu, Müdafiə nazirliyi ilə birgə ölümündən sonra Milli qəhrəman adı verərək, medalla təltif etmişdir.
Medal oğlu Rəhmanın yaxasına sancılsın! Hamı ayağa qalxdı, hamı donub qalmışdı, birdən alqış səsləri sarayı bürüdü. Atasının ruhu şad olsun deyə, üzükləri bəylə gəlinin barmaqlarına, şəxsən general özü taxdı.
Mübarək olsun , Alqışlar anam mərdi mərdanə, bütün bu olanları izləyirdi, bu vaxt marş çalındı, hamı qapıya baxdı. Üç nəfər hərbi geyimdə əskəri addımlarla bizə tərəf gəlirdi. Bizim kimi hamı vəziyyəti izləyirdi,
– Xuraman həkim ( şərti soy ,adı ) sizsiniz?
– Bəli...
– Sizə bir sürprizimiz var.
– Həyacanlanmayın.
– Buyurun,
– Sizi təbrik etmək üçün şəxsən atanızı təqdim edirəm.
Gözlənilməz olay hamını şoka salmışdı.
Bir xeyli göz–gözə, baxışandan sonra.
– Ata... aa atacan deyə, qucaqlaşdılar. Toy yarı gecəyədək davam edir, bitmək bilmirdi.
– Ata mən səninlə fəxr edirəm! Sinəsində müxtəlif medallar onun şücaətlərinin bəhrəsiydi.

– Biz sizinlə fəxr edirik Ata! deyə Rəhman da qaynatasını qucaqladı öpüşdülər.
Müəllif : Onlar toy məclisində, bizlər də ailələrimizlə xoşbəxt olaq.
O GÜN GƏLDİ 44 GÜNLÜK MÜHARİBƏ VƏ QƏLƏBƏ...
TORPAQLARIMIZI QAYTARDIQ, ŞUŞA AZAD OLUNDU.
BÜTÜN RAYONLARIMIZ ARTIQ ÖZÜMÜZDƏDİ. İNDİ FİZULİDƏ AEROPORT İSTİFADƏYƏ VERİLİB. VƏ DAVAMLI ABADLAŞDIRMA İŞLƏRİ GÖRÜLÜR. YAŞASIN DƏMİR YUMRUQLU AZƏRBAYCANIN PREZİDENTİ İLHAM HEYDƏR OĞLU ƏLİYEV.
Oxucularıma da səbr və təkminlə oxuduqlarına görə dərin minnətdarlıq hissi bildirirəm.

S.O.N

Ailə Əfsanəsi

Sərbəst şeir

Gördüyüm taleyi,
çoxdan yazmışdım.
İndi yada salım
siz qulaq asın.
Həyat rəngarəngdir,
– Bunu biləsiz.
Xeyirli işlərə,
hər an gedəsiz.
Sevən,sevəninə açar qəlbini.
Söylər ürəyindən, keçən fikrini.
Arzusuna çatdı,
Yada çatmadı.
Söyləyim ay dostlar.
Siz qulaq asın.

Biri vardı, sevirdi qonşudakı bir qızı.
Ürəyidə gedirdi hər görəndə o qızı.
Elə gətirdi birgün,oğlan cəbhəyə getdi.
Qaldı gizli məhəbbət, xəbər tutan olmadı.
Gecəsi–gündüzü yox, gözləyirdi yolunu.
Günü–günə calayib, gözləyirdi oğlanı.
Ürəyinnən keçəni naməsinə yazırdı.
Bilməyirdi yerini, o harda olduğunu.
Naməyə yazmaq üçün cilovlardı özünü.
Sevgisinə kağıza, yazırdı hər sözünü.
Cavabını yazırdı o,  saatda özünə.
İllər bir papaq kimi, firlanirdi başında.
Əsgərlikdən qayıtdı o, otuz beş yaşında.
Çəkdiyi əzabları, rəngini saraltmışdı.
Sevdiyi qızını da, O tamam"Unutmuşdu"
Qorxurdu ki, o canan onu qəbul eyləməz.
Əsgərlikdən qayıtdı, gəldi dinməz söyləməz.
Gözləməsin qız onu, qoy ərə getsin deyə.
Gizli gədi evinə. Anaya bir dağ oldu.
Oğlunun bu halını, gördü o bihal oldu.
Çəkdi dərdi içində, Oğlunu əzizlədi.
Qoymadı fikir etsin,qulluğunda gəzdi o.
Cani dildən bəslədi, balasın əzizlədi.
Yenə ötürdü illər yaş üstə yaş gəlirdi.
Yadına hər salanda, qəlbində kövrəlirdi.
Bir gün qapı döyüldü.
Ana evə gec gəldi.
Məcbur olub qapını özü açmalı oldu.
Qız isə gözləməkdən, ağarmışdı telləri.
Dayanmadan yazırdı qəlbində ki, sözləri.
Oğlanı gözləyirdi.
Artıq dözə bilmədi,
çıxdı onlara getdi.
Qəlbindəki sözləri,ürəyini əritdi.
Məhəbbət macərası

nə qədər gizli qalsın?
Anasına deyəcəm.
Qoy bu söhbəti açsın,
qoy bir gedim öyrənim.
Niyə sədası  yoxdu?
Alıb məktublarımı
döyəcəm mən qapısın.
 Yaxınlaşdı qapıya, oğlan açdı qapını.
Bir–birini gördülər,
bu iki sevgililər.
Duruxdular, baxdılar,
 Sonra yaxınlaşdılar.
 Bir–birinə baxaraq,
Möhkəm qucaqlaşdılar.
Ayrıla bilmədilər,
sarıldılar o ki, var.
Ətrafda baxanlara
 Heç məhəl qoymadılar.
Hər ikisi çallaşıb,
Azca sınıxmışdılar.
 Artıq keçən günləri,
Çoxdan "unutmuş"dular.
Təyin edib toy günün
Ellə razılaşdılar.
Ana–oğul, gəlində
dil tapib yaşadılar.
Allah xoşbəxt eləsin,
Oğul uşaq törənsin.
Bir bəxtəvər ailə,
Çox xoşbəxtdi deyilsin.

02.01.2018